

**Hesablama riyaziyyatı kafedrası - 50**

səh. 3

**BDU ilə USAİD arasında Anlaşma Memorandumu**

səh. 2

**Vasim Məmmədəliyev- 70**

səh. 5




Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

1929-cu ildən çıxır
**Təsisçi:** Bakı Dövlət Universiteti

№ 12 (1435) 25 noyabr 2012-ci il


**Akademik Abel Məhərrəmova "Elm və Texnologiya sahəsində 2012-ci ilin İSESCO mükafatı" təqdim edilib**

səh. 2

**Əməkdaşlıq müqaviləsi İMZALANIB**

səh. 2

**Yaponiyalı alim mühazirə oxuyub**

səh. 3

**Nottingem Universitetinin professoru ilə görüş**

səh. 2

**Rektordan xoş xəbər**

səh. 2

**Vladimir Tahirov - 80**

səh. 5

**MİLLİ DƏYƏRLƏRİMİZİN QƏDRİNİ BİLƏK**

səh. 3

**Böyük Britaniya BDU-nun Nanotexnologiyalar sahəsində nailiyyətləri ilə maraqlanır**

səh. 2

**Biblioqrafiya dərnəyinin iclası**

səh. 6



*Məntiqini yoxla*

səh. 6

# Heydər Əliyev: "Konstitusiyanın hər bir müddəası xalqın iradəsini ifadə edir"



Dövlətin əsas qanunu 1995-ci il noyabrın 27-dən qüvvəyə minib. Artıq 15 ildir ki, Azərbaycan noyabrın 12-ni Konstitusiya Günü kimi qeyd edir. 1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə respublikanın dördüncü Konstitusiyasıdır. 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Jümhuriyyəti dövlətin əsas qanununu qəbul edə bilməmişdi. Azərbaycanın Konstitusiya quruluşunun tarixi isə SSRİ dövrünə təsadüf edir.

**15 noyabr 1919-cu il... BDU-da ilk dərs günü**

səh. 6

***Deputat-tələbə əməkdaşlığı***

səh. 8

**Qanun naminə**

səh. 7

***3 sual 3 cavab***

səh. 8

***2209 nömrəli otaq***

səh. 7

**Cəmiyyətdə psixoloqa yanaşma**

səh. 7

**Yeni nəşrlər**

səh. 8



***İnternet asılılığı...***

səh. 8

**Ay vəfasız...**

səh. 6

## POÇT QUTUSU

*Bakı Dövlət Universitetinin rektoru,*
*akademik Abel Məhərrəmova*

*Çox hörmətli Abel müəllim!*

Mənim həyat yoldaşım ikinci qrup əlildir. Mən də işləmirəm. Bizim iki övladımız: Nurlan və Orxan Həsənovlar bu il ödənişli əsaslarla ali məktəbə qəbul olublar. Oğlum Sumqayıt Dövlət Universitetinin tarix fakültəsində, qızım isə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsində təhsil alır. Ailə vəziyyətimiz ağır olduğu üçün mən övladlarımın təhsil alması naminə ödəniş haqqını borc alıb ali məktəblərə ödəmişəm. Amma bu məktubu yazmaqda məqsədim ailə vəziyyətimizin ağır olmasını qabartmaqdan ibarət deyil. Oğlum oxuduğu müddətdə BDU-da təhsil almasından çox məmnun olması, fakültə rəhbərliyinin onlara göstərdiyi qayğı və nəhayət, Sizin rəhbərliyiniz altında universitetdə çox yaxşı mühitin formalaşması, nəticədə tələbələrin böyük ruh yüksəkliyi ilə təhsil almaları mənim bu məktubu yazmağımın əsas səbəbidir. Mən yaradılmış bu şəraitə görə Sizə bir ana kimi, vətəndaş kimi təşəkkür etmək istəyirəm.

Təhsilimizin inkişafı naminə bundan sonrakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Elmira Həsənova,*
*valideyn*

# Rektordan xoş xəbər

***"Bakı Dövlət Universitetinin tələbə yataqxanalarında məskunlaşmış məcburi köçkünlər bu ay köçürüləcək".***

Noyabrın 13-də jurnalistlərə açıqlamasında ali məktəbin rektoru akademik Abel Məhərrəmov belə deyib.

Rektorun sözlərinə görə, 7 min nəfərə qədər məcburi köçkündən ibarət 1000 ailə Bakının Pirəkəşkül qəsəbəsində tikilən evlərə köçürüləcək: "Evlər tam hazırdır. Orada bütün infrastruktur yaradılıb. Hər cür şəraitə məxsus məktəb, uşaq bağçası var. Yataqxanalarda fəaliyyət göstərən köçkün məktəbləri də ora köçürüləcək".

Rektor bildirib ki, köçürülmə başa çatandan sonra BDU-nun yataqxanaları söküləcək və yerində çoxmərtəbəli tələbə şəhərciyi salınacaq: "Yataqxanalar yarım əsrdir tikilib. Məcburi köçkünlər yaşadığı dövrdə isə pis vəziyyətə düşüb və ona görə də söküləcək. Yerində Avropa standartlarına cavab verən tələbə şəhərciyi olacaq. Yeni şəhərcik 5000 nəfər tələbə tutacaq. Artıq layihə hökumətə təqdim olunub və qəbul edilib. Şəhərcikdə idman kompleksi, kitabxana, tələbələrin istirahəti üçün müxtəlif guşələr olacaq. Eyni zamanda şəhərciyin həyətindən universitetə birbaşa yol salınacaq". ***/mediaforum.az/***

## Böyük Britaniya BDU-nun Nanotexnologiyalar sahəsində nailiyyətləri ilə maraqlanır

Rektor Abel Məhərrəmov Böyük Britaniyanın Elm və İnnovasiya Şəbəkəsinin nümayəndələrini - şəbəkənin Almaniyadakı rəhbəri Kənan Poleonu və Şəbəkənin Türkiyədəki əməkdaşı Başak Candemiri qəbul edib. Qonaqların Azərbaycana səfərlərinin məqsədi ölkənin aparıcı elm mərkəzləri ilə əməkdaşlıq qurmaq üçün görüşlərin keçirilməsidir. Rektor BDU-nun beynəlxalq proqramlar və qrantları haqqında məlumat verərək, universitetdə elm və təhsilin inkişafı barədə də danışıb. Abel Məhərrəmov BDU-da nanotexnologiya sahəsində əldə olunan nailiyyətlər barədə bəhs edib.O cümlədən, İSESKO-nun universitetə verdiyi böyük qiyməti vurğulayıb.

Kənan Poleo, öz növbəsində, universitetlə, həmçinin nanotexnologiyalar sahəsində əldə olunan nailiyyətləri ilə yaxından tanış olmaq arzusunu ifadə edib. Görüşdə iştirak edən Böyük Britaniya səfirliyinin müşaviri Adrian Li səfirliyin universitetlə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirib. Daha sonra qonaqlar tədris və elmi-tədqiqat laboratoriyalarında olublar.

# BDU ilə USAİD arasında Anlaşma Memorandumu imzalanıb



Noyabrın 13-də rektor, akademik Abel Məhərrəmov Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) nümayəndə heyətini qəbul edib. BDU-nun tarixi, beynəlxalq əlaqələri, qrant və proqramlarda iştirakından danışan rektor Abel Məhərrəmov USAİD-lə əməkdaşlıqda maraqlı olduğunu və bu əməkdaşlığın gələcəkdə səmərəli nəticələr verəcəyini qeyd edib. Rektor nümayəndə heyətinə deyib ki, Bakı Dövlət Universitetində elmin və təhsilin inkişafına göstərdiyiniz qayğıya və dəstəyə görə Sizə minnətdarıq. Bu, bizim ikitərəfli əlaqələrimizə yeni dinamika verəcəkdir. Biz hüquq təhsilinin keyfiyyətinin yüksəlməsi sahəsində fikirlərinizi, səylərinizi dəyərləndiririk və USAID (ABŞ Beynəlxalq İnkişaf Agentliyi), ABA ROLI (Amerika Hüquqşünaslar Assosiasiyası), Tuleyn Universiteti ilə birgə əməkdaşlığımız çərçivəsində Bakı Dövlət Universitetində yeni və güclü Dəniz və Enerji hüququ üzrə magistr proqramının qurulmasına ümid edirik". Görüş zamanı Bakı Dövlət Universiteti ilə USAİD arasında davamlı əməkdaşlıq yaratmaq məqsədi ilə anlaşma memorandumu imzalanıb.

Memorandumu BDU-nun rektoru, akademik Abel Məhərrəmov və Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) Azərbaycan üzrə missiya rəhbəri Maykl Qrin imzalayıblar. Anlaşma Memorandumuna əsasən tərəflər yeni magistr proqramının hazırlanması və həyata keçirilməsi, proqramı üzrə yeni fənlərin və tədris planının tərtibi və fakültə üzvləri üçün tədris planının hazırlanması, tədris metodologiyasının istifadəsi üzrə təlimlərin keçirilməsi istiqamətində birgə əməkdaşlığı bəyan etdilər. Onlar həmçinin yeni magistr proqramı üçün dərs vəsaitlərindən və digər müvafiq materiallardan ibarət kitabxananın qurulmasına başlayacaqdır.

Dəniz və Enerji hüququ üzrə magistr proqramı 2 illik tədris proqramı olacaq. Bu proqram tam yeni fənlərdən ibarət olaraq hüququn Azərbaycana daha çox aidiyyəti olan sahələrinə xüsusi diqqət yetirəcək. İlk tələbələrin qəbulu 2013-cü ilin payızında planlaşdırılır. Başlanğıcda proqramın tədris dili ingilis dili olacaq. Görüşdə ABŞ-ın ölkəmizdəki səfiri Riçard Morninqstar da iştirak edib.

## Akademik Abel Məhərrəmova "Elm və Texnologiya sahəsində 2012-ci ilin İSESCO mükafatı" təqdim edilib



Qəzetimizin ötən sayında rektor, akademik Abel Məhərrəmovun "Elm və Texnologiya sahəsində 2012-ci ilin İSESCO mükafatı"na layiq görülməsi barədə xəbər dərc edilmişdi. Mükafat 20-21 noyabr 2012 tarixlərində Sudanın Xartun şəhərində keçirilən "Ali Təhsil və Elmi Tədqiqatlar Nazirlərinin altıncı İslam Konfransı" çərçivəsində təqdim edilib. Bu prestijli mükafat akademik Abel Məhərrəmova Kimya (nanomateriallar və nanotexnologiyalar) sahəsindəki böyük uğurlarına görə verilib.

Xatırladaq ki, "Elm və Texnologiya sahəsində mükafat" İSESCO tərəfindən təşkilatın üzvü olan 56 ölkə üzrə sosial-iqtisadi əhəmiyyətli elmi-texniki problemlərin həll olunması uğrunda görülən mühüm işləri mükafatlandırmaq və innovativ istedadlı insanları təşviq etmək məqsədilə 2008-ci ildə təsis edilib. Həmin mükafat 2 ildən bir - biologiya, kimya, geologiya, riyaziyyat və fizika sahələrində əldə edilən nailiyyətlərə görə 56 ölkə üzrə yalnız 1 nəfərə verilir. Akademik Abel Məhərrəmov bu mükafata layiq görülən ilk azərbaycanlı alimdir.

Adıçəkilən konfransda məhz gənc müsəlmanların elmə cəlb olunması, təhsil səviyyələrinin yüksəlməsi və dünyada gedən rəqabət proseslərinə tab gətirə bilən gənc nəslin yetişdirilməsi məsələləri də müzakirə edilib.

## Daha bir əməkdaşlıq müqaviləsi imzalandı

Noyabrın 8-də rektor, akademik Abel Məhərrəmov Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Ankara başkanı, professor, doktor Hayrettin İvgini qəbul edib. Rektor Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələrindən, üzvü olduğu assosiasiya və qurumlardakı fəaliyyətindən danışıb.

H.İvgin isə öz növbəsində təmsil etdiyi Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası haqqında məlumat verib. Məlum olub ki, akademiya Türk Dünyasında və türklərin yaşadıqları ölkələrdə türk dilini, mədəniyyətini, tarixini və ədəbiyyatını öyrənmək, araşdırmaq və yaymaq məqsədilə yaradılmış beynəlxalq elmi təşkilatdır. Akademiya dünyanın 30-dan çox ölkəsinin tanınmış universitetləri, tədqiqat institutları, akademiyaları, bioqrafiya mərkəzləri, vəqfləri və digər qurumları ilə qarşılıqlı əməkdaşlıq edir. Hal-hazırda akademiyanın bir sıra ölkələrdə rəsmi təmsilçiləri var. Akademiya tərəfindən indiyə qədər 100-dən çox beynəlxalq konqres, simpozium, mərasim, konfrans və müxtəlif tədbirlər keçirilib.

Qarşılıqlı maraq doğuran məsələlərin müzakirə olunduğu görüşün nəticəsi olaraq BDU ilə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Sonda H.İvgin rektor, akademik Abel Məhərrəmovun akademiyanın həqiqi üzvü seçildiyini bildirib və diplomu rektora təqdim edib. Rektor isə öz növbəsində Hayrettin İvginə "BDU-nun fəxri qonağı" diplomunu təqim edib.

## Yaponiyalı alim BDU-da mühazirə oxuyub

Rektor, akademik Abel Məhərrəmov Tokio Universitetinin mədəniyyət antropologiyası üzrə fəxri professoru Takeo Funabikini qəbul edib. BDU haqqında qonaqlara məlumat verən rektor, əsasən universitetin beynəlxalq əlaqələrindən danışıb. Görüşdə BDU ilə Yaponiya universitetlərinin əməkdaşlığından, yapon dilinin tədrisi məsələlərindən danışılıb. Eyni zamanda Azərbaycan-Yaponiya parlamentlərarası dostluq qrupunun fəaliyyətindən də bəhs edilib. Qonaq universitetdə yapon dilinin tədrisindən razı qaldığını bildirib. Görüşdə Yaponiyanın səfir Şusuke Vatanabe iştirak edib.

Qonaqlar BDU-nun Nanotexnologiya laboratoriyasında və digər elmi mərkəzlərində olublar. Sonra yaponiyalı professor universitet tələbələri qarşısında "Yenə də anlaşılmaz yaponlar? - Onlar Böyük Zəlzələ vaxtı və ondan sonra nə cür hərəkət edirlər?" mövzusunda mühazirə ilə çıxış edib.

## Nottingem Universitetinin professoru Deyv Dauti ilə görüş

Rektor, akademik Abel Məhərrəmov Nottingem Universitetinin İnsan Resurslarının İnkişafı üzrə Beynəlxalq Departamentinin direktoru, British Council-ın MDB ölkələrində İnsan Resurslarının İdarə olunması üzrə Baş Məsləhətçisi Deyv Dauti ilə görüşüb.Görüş zamanı Nottingem universiteti ilə BDU arasında ikili diplomların tətbiq olunması üzrə proqramın yaradılması məsələsi müzakirə olunub. Rektor BDU-nun beynəlxalq proqramlar və qrantları haqqında məlumat verərək artıq BDU ilə Ankara universiteti arasında ikili diplomların verilməsinə dair Anlaşma Memorandumunun imzalandığını bildirib. Akademik Abel Məhərrəmov eyni təcrübənin Rusiya Universitetləri ilə də olduğunu qeyd edərək BDU-nun Avropa universitetləri ilə də bu istiqamətdə əməkdaşlıq etməyə maraqlı olduğunu qeyd edib. Rektor, biznesin idarə olunması məsələsinin də çox aktual olduğunu qeyd edərək BDU-nun bu məsələyə dair maraqları haqqında danışıb.

Səhifəni təqdim etdi: **Mətbuat və İnformasiya şöbəsi**

# Hesablama riyaziyyatı kafedrasının 50 illik yubileyi keçirilib

***Universitetin fundamental elm mərkəzlərindən, müasir elmi tələblərlə səsləşən kafedralarından biri olan Hesablama riyaziyyatı kafedrasının yaranmasının 50 illiyi münasibətilə tədbir keçirilib.***





Tədbiri girişi sözü ilə açan rektor, akademik Abel Məhərrəmov kafedranın yaranma və fəaliyyət tarixindən, əldə etdiyi uğurlardan bəhs edib. Bildirib ki, kafedra riyaziyyat elminin yeni istiqamətlərindən biri olan hesablama riyaziyyatının respublikada inkişaf etdirilməsi, bu elm sahəsinin nailiyyətlərinin istehsalata tətbiqi məqsədi ilə yaradılıb və mövcud olduğu illər ərzində geniş fəaliyyət göstərib. 1965-ci ildə, o zamanlar Voronej Dövlət Universitetində işləyən professor Yəhya Məmmədov kafedraya rəhbərlik etmək üçün Bakıya dəvət olunub 1965-ci ildən ömrünün sonuna-2000-ci ilədək kafedraya rəhbərlik edib. Bu illər ərzində hesablama riyaziyyatı bir elm sahəsi kimi inkişaf etmiş və respublikada onun məktəbi yaranmışdır. Hazırda kafedraya professor Qalina Mehdiyevanın rəhbərlik etdiyini deyən rektor son illərdə əldə edilmiş uğurlardan da bəhs edib.

Sonra Hesablama riyaziyyatı kafedrasının müdiri, professor Qalina Mehdiyeva kafedranın yarım əsrlik inkişaf tarixi mövzusunda məruzə ilə çıxış edib. Onun sözlərindən məlum olub ki, hesablama riyaziyyatı kafedrasının dünyanın qabaqcıl universitetləri ilə sıx əməkdaşlıq əlaqələri qurulub, kafedranın əməkdaşları nüfuzlu universitetlərdə təşkil olunmuş beynəlxalq elmi konfranslarda geniş məruzələrlə çıxışlar edib, Azərbaycan elmini ləyaqətlə təmsil edərək sertifikatlar alıblar. Son zamanlarda kafedranın maddi texniki bazası müasir tələblərə cavab verən avadanlıqlarla təmin olunub, belə ki, onun nəzdində 100-dək kompyuter, 5 elektron lövhə və digər müasir avadanlıqlarla təchiz olunub, 6 auditoriyada yerləşən hesablama laboratoriyaları fəaliyyət göstərir. Tələbələr kafedrada mövcud olan elektron kitabxana vasitəsilə bir çox qabaqcıl universitetlərin tədris proqramlarına uyğun dərs vəsaitlərini əldə edə bilirlər.

2011-2012 tədris ilində kafedra əməkdaşları 30 proqram, 100-ə yaxın elmi məqalə çap etdiblər. Almaniyanın tanınmış nəşriyyatlarından olan LAP LAMBERT Academic Publishing nəşriyyatı kafedranın əməkdaşlarının kitablarının çap olunmasını və onların satışını təşkil etməyi təklif edib. Kafedra əməkdaşları elmi araşdırmalarla yanaşı təhsil prosesinin inkişafı sahəsində də böyük işlər görüblər. Dünyanın bir çox aparıcı universitetlərinin (Mançestr Universiteti, Praqa Universiteti, Bolonya Universiteti və s.) tədris proqramları öyrənilərək, tədris prosesinə tətbiq olunub, bu universitetlərdə istifadə olunan 17 ədəd dərs vəsaitləri, mühazirə mətnləri götürülərək, tələbələrin ixtiyarına verilib. Kafedranın nəzdindəki laboratoriyalarda yerləşdirilmiş çox saylı müasir kompüterlər tədris prosesinin effektivliyini artırmağa, tələbələrin kompüter şəbəkəsi vasitəsilə lazımi informasiyanı almaq üçün şərait yaratmağa imkan verir. Kafedra əməkdaşları təkcə 2011-2012 tədris ilində elmi işlərin nəticələrinə görə 9 sertifikatla və Londonda yerləşən Inernational Academy of Sciences and Higher Education London, Great Britain (Ali təhsil və Beynəlxalq elmlər Akademiyası) tərəfindən "Elmin inkişafı" diplomu ilə təltif olunub.



Təhsil naziri, professor Misir Mərdanov isə kafedranın ilk rəhbəri Yəhya Məmmədovla bağlı xatirələrindən danışıb, kafedranın bugünkü nailiyyətlərində professor Qalina Mehdiyevanın xidmətlərini xüsusilə qeyd edib.

Sonra Rabitə və informasiya texnologiyaları naziri, akademik Əli Abbasov, Kibernetika İnstitutunun direktoru, akademik Telman Əliyev, Riyaziyyat və Mexanika İnstitutunun direktoru, akademik Akif Hacıyev, Azərbaycan Dövlət Pedaqoci Universitetinin rektoru, professor Yusif Məmmədov, Slavyan Universitetinin rektoru, professor Kamal Abdulla, Texniki Universitetinin rektoru, professor Havar Məmmədov, Nazirlər Kabineti Aparatının Elm, Mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsinin müdiri İsmayıl Sadıqov, Tibb Universitetinin kafedra müdiri Rəna Əliyeva da çıxış ediblər. Tədbirdə canlı bağlantılar vasitəsilə də təbriklər olub.

***Mətbuat və informasiya şöbəsi***

# MİLLİ DƏYƏRLƏRİMİZİN QƏDRİNİ BİLƏK

Bir millət kimi indiyə qədər başımıza gələnlərin hamısı unutqanlığımızın nəticəsidir. Bunu bilirik, amma bir nəticə çıxarıb tədbir görmürük; niyə? Bax elə bütün məsələ də bundadır.

Keçək mətləbə. Axır vaxtlar ancaq xarici diasporanın yardımı və Rusiyada fəaliyyət göstərən iş adamlarının reklamları hesabına Ermənistan telekanalları yeni proqramlar axtarışına başlayıb. Belə ki, Ermənistanın onsuz da az izlənilən, yalnız millətçilikdən və kilsələrdən bəhs edən proqramlar hazırlayan (göstərən) ən böyük telekanalları "Şant" və "Erm - 1" dövlət kanalı öz verilişlərini daha baxımlı etmək üçün müxtəlif variantlara əl atır. Bunlardan biri də fərqli yaş qrupları arasında (14, 25, 40 və daha yuxarı) "erməni xalq mahnıları" yarışmalarının təşkil edilməsidir. Maraqlıdır ki, yarışmada oxunan mahnıların əksəriyyəti Azərbaycan xalq mahnılarıdır. O mahnılar ki, başı şou-biznesə qarışmış bizim müğənnilər tərəfindən çox nadir hallarda oxunur və ya heç oxunmur. Bizim televiziya kanallarının da bu məsələyə ögey münasibətləri danılmazdır. Ermənilərin isə məqsədi, ilk növbədə, unudulmaqda olan mahnıları yaddaşlarda saxlamaq, gənc nəslin buna marağını artırmaq və Azərbaycan xalq mahnılarını özününküləşdirməkdir.

Bu mahnılardan bəziləri haqqında məlumat verək. Məsələn: "Dərələr" (Ş.Ələkbərovanın ifasında, bəstəkar - E.Sabitoğlu), "Anamdan bir dəsmal aldım", "Aç xurcunu, kəs almanı", "Gözəlim sənsən" ("Yaralıyam, dəymə mənə"), "Mən sənə qurban, mən sənə heyran", "Mehribanım, dur oyna", "Yana-yana", "Üçtelli durna", Ü.Hacıbəyovun "O olmasın, bu olsun" və "Arşın mal alan" filmlərindəki bütün mahnıları, çoxsaylı Azərbaycan oyun havaları.

Acınacaqlısı odur ki, ermənilər ifa etdikləri mahnılarda əksər Azərbaycan sözlərini olduğu kimi oxuyurlar. Bunlar elə sözlərdir ki, onları ermənicəyə tərcümə edərkən həm mahnının, həm də musiqinin uzlaşması və mahiyyəti itir.

*Məsələn: Bats xurcunı, dur danaqı,*
*Qis xndzorı, dur yarin*
*Dilim-dilim.*
*Mahnının dəqiq tərcüməsi belədir:*
*Aç xurcunu, ver bıçağı,*
*Böl almanı, ver yara*
*Dilim-dilim.*

Burada "dilim-dilim" sözünü erməni ədəbi dilində söyləsə idilər, mahnıda bir uyğunsuzluq yaranardı. Bu mahnının müəllifi rəsi zamanı məsələ o yerə çatır ki, söz alan erməni professor mahnının sonunda deyilmiş "dilim-dilim" sözünün qədim erməni sözü olduğunu bildirir.

Bundan başqa, ermənilər "yaman", "yana-yana", "aman-aman", "yar", "yar-can", "bala", "balacan", "qurban", "ceyran", "nazənin", "nazlı", "boyuna-posuna", "xəbər" və s. sözlərdən də mahnılarda çox istifadə edirlər. Bəzən də bu sözlərin onların dilində olmadığını bildikləri üçün özlərini sığortalayaraq sözlərin və mahnıların Sayat Novaya aid olduğunu söyləyirlər. Halbuki oxunan mahnıların əksəriyyəti Sayat Novadan çox-çox sonrakı dövrdə yaranıb. Əslən Qarabağdan olan bir erməni müəllifi isə daha da irəli gedərək "Sayat Nova - erməncə və türkcə mahnıları və oyun havaları" adlı bir kitab çıxardıb. Şeirlərinin 130-u (türkcə) azərbaycanca, 60-ı erməncə, 30-u isə gürcücə olan və erməni əsilli olduğu hələ də mübahisəli olan Sayat Novanın həm də oyun havaları yaratdığından kimsənin xəbəri yoxdur. Özü də o oyun havaları ki, Sovet hakimiyyəti illərində bizim sənətkarlar və bəstəkarlar tərəfindən yaradılmışdır.

Fikir verirsinizsə, yuxarıda adları qeyd olunan mahnılar arasında ermənilərin ən çox iddia etdikləri "Sarı gəlin"in adı yoxdur. Ona görə ki, son bir neçə il ərzində bizim müğənnilərin əksəriyyəti müxtəlif konsertlərdə və bütün televiziya kanallarında, hətta xarici səfər konsertlərində "Sarı gəlin"i o qədər səsləndirmişlər ki, artıq ermənilər özləri də başa düşmüşlər ki, bu mahnının onlara aid olması barədə apardıqları təbliğat mənasızdır.

Deməli, belə nəticəyə gəlmək olar ki, ermənilər ən çox bizim uzun müddət ifa etmədiyimiz mahnıları özəlləşdirmək istəyirlər. Ona görə də biz çalışmalıyıq ki, keçirilən bütün tədbirlərdə və konsertlərdə xalqımızın əsl mənəvi dəyəri olan qədim xalq mahnılarına üstnlük verək. Bu işdə televiziya və KİV-in üzərinə böyük vəzifələr düşür. Çünki mənim bildiyimə görə, düşmənçiliyimizə baxmayaraq, ermənilər ən çox bizim televiziya verilişlərinə baxırlar. Biz də bu fürsətdən maksimum istifadə etməliyik. Mədəniyyət işçilərimiz, sənətkarlarımız, jurnalist və yazarlarımızla birlikdə çalışmalıyıq ki, bütün dünyada tanınan və hörmət qazanan milli-mədəni və mənəvi dəyərlərimiz olan xalq mahnılarımızın qədrini bilək, mənfur qonşularımızın onları özününküləşdirməsinə imkan verməyək.

***Atalarımız yaxşı deyib: "Yeməyənin malını yeyərlər".***

*İsmayıl Tanrıverdi*

*Erməni araşdırmaları Elmi-Tədqiqat Laboratoriyasının böyük elmi işçisi*

# 12 noyabr Konstitusiya Günüdür

Azərbaycanın ilk Konstitusiyası 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər Qurultayında qəbul olunub. Azərbaycan SSR Konstitusiyasının 1921-ci il SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. Azərbaycan SSR-in 1978-ci ilin aprelin 21-də qəbul edilmiş son Konstitusiyası da əvvəlki konstitusiyalar kimi SSRİ Konstitusiyasına uyğunlaşdırılıb.

Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni Konstitusiyanın hazırlanması zərurəti meydana çıxıb. Bunun üçün prezident Heydər Əliyevin rəhbərliyi ilə xüsusi komissiya yaradılıb, Konstitusiya layihəsi ümumxalq müzakirəsinə çıxarılıb. 1995-ci il noyabrın 12-də referendumla müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunub.

Müstəqil Azərbaycanın dövlət quruculuğunun əsasını təşkil edən ilk Konstitusiya 5 bölmə, 12 fəsil, 158 maddədən ibarətdir. 2002-ci ilin avqustunda və 2009-cu ilin martında referendum yolu ilə Konstitusiyaya əlavə və dəyişikliklər edilib. Azərbaycanda ilk konstitusiya məhkəmə nəzarəti orqanı olan Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi isə 1998-ci il iyul ayının 14-də yaranıb.

Qeyd: Konstitusiya - dövlətin ali qanunudur, ali hüquqi qüvvəyə malikdir, dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsasları təsbit edir. Konstitusiyalar iki əsas növə bölünür: yazılı və yazılmamış. Yazılı konstitusiyalar ya vahid normativ akt, ya da bir neçə konstitusiya qanununun məcmusudur. Yazılmamış konstitusiyalarda isə ali qanun normalar, çoxlu sayda akt, həmçinin adətlərdə təsbit olunub.

Dünyada Konstitusiya ilk dəfə 1215-ci ildə İngiltərədə təsbit olunub. Həmin vaxt bu ölkədə qəbul olunan Azadlıqların Böyük Toplusu ilk konstitusiya aktı sayılır. İlk yazılı ali qanun isə ABŞ Konstitusiyadır.

# Həsən Əliyevin 105 illiyinə həsr olunmuş konfrans keçirilib

**Akademik Həsən Əliyevin 105 illik yubileyinə həsr olunmuş “Ekologiya: təbiət və cəmiyyət problemləri” adlı II Beynəlxalq konfrans keçirilib. Konfransı açan universitetin rektoru, akademik Abel Məhərrəmov akademik Həsən Əliyevin həyat və fəaliyyətindən, elmə verdiyi töhfələrdən danışıb.** Deyib ki, akademik təkcə Azərbaycan torpaqlarını öyrənməklə kifayətlənməmişdir. O, Böyük Qafqazın dağ-çəmən torpaqlarını öyrənməklə bütün Qafqazın torpaqlarının yaranması və yayılması qanunauyğunluqlarını təhlil etmişdir. Həsən müəllimin bir tədqiqatçı kimi özünəməxsusluğu ondan ibarət idi ki, o elmi tədqiqatların nəticələrini həyata tətbiq etməyə çalışırdı. Məhz ona görə də torpaqlara, meşələrə, əkinçiliyə və s. dair nəticələri ümumiləşdirir, rayonlaşdırır və xəritələşdirirdi. Son nəticədə onların əsasında ərazilərin inkişaf problemlərinə dair təkliflər verirdi. Həmin təkliflər bu gün də öz dəyərini və aktuallığını saxlayır. Məsələn, təkcə Lənkəran-Astara zonasında 190 min ha sahə tədqiq edilmiş, həmin rayonlarda çayçılığı inkişaf etdirmək üçün xüsusi məktubla Kənd Təsərrüfatı Nazirliyinə və Meşəçilik komitəsinə müraciət etmişdir. Akademik təbiəti və ətraf mühiti mühafizə sahəsində geniş miqyaslı əməli tədbirlər planı hazırlanmasına və həyata tətbiqinə nail olmuşdu.



***Rektor Abel Məhərrəmov bildirib ki, Həsən Əliyev elmi və ictimai fəaliyyəti ilə hələ 1960-cı illərdə xarici ölkələrdə geniş tanınmağa başlamışdır.*** Bu sahədə fəaliyyətini üç istiqamətdə aparırdı - Əsərlərinin dünyanın bir çox ölkələrində müvəffəqiyyətlə çap edilməsi ilə, Azərbaycanda onun təşəbbüsü və rəhbərliyi ilə elmi konfranslar və beynəlxalq simpoziumlar keçirilməsi ilə, Xarici ölkələrdə torpaqların coğrafiyasına, meşələrin inkişafının elmi əsaslarına, ekologiyanın bir çox problemlərinə dair maraqlı mühazirələr oxuması ilə. Rektor bildirib ki, Azərbaycanın Əməkdar elm xadimi adına, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı, Vavilov adına medala da layiq görülən Həsən Əliyevin ən böyük mükafatı xalqının məhəbbətini qazanmaq olmuşdur. İnanıram ki, bu gün keçirdiyimiz beynəlxalq elmi konfrans bu böyük şəxsiyyətin ruhu qarşısında icra edə bildiyimiz mənəvi borclardan biridir. Onun Azərbaycan təbiətindən daim narahat olan ulu ruhu əmin olmalıdır ki, qoyduğu irs, yaratdığı elmi məktəb uğurla davam etdirilir. Bu gün onun tələbələri və aspirantları, kitablarından təbiəti, xalqı sevməyi öyrənən minlərlə insan ildən-ilə çiçəklənən, inkişaf edən ölkəmizdə ekoloji mühitin saflaşdırılması, gələcək nəsillərə daha yaxşı vəziyyətdə çatdırılması üçün Həsən Əliyev ənənələrini davam etdirmək əzmindədirlər. Həmin ənənələrin davamı olan bu konfransda ekologiyanın ən müxtəlif sahələrinə dair elmi konsepsiyaların müzakirə olunmasına və gələcəkdə onların tətbiqinə əmin olaraq konfransın işinə uğurlar arzulayıram.

***Sonra Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Şövqi Göyçaylı çıxış edib.*** O, Həsən Əliyevin görkəmli alim, elm təşkilatçısı və ictimai xadim kimi fəaliyyətindən danışıb. Ş.Göyçaylı Azərbaycanda ətraf mühiti mühafizəyə dair ilk kafedranın (1980) Bakı Dövlət Universitetində açılması ideyasını irəli sürən və təşəbbüs göstərənlərdən birincisinin Həsən Əliyev olduğuna, həmin kafedrada xüsusi kurs üzrə mühazirələr oxuduğuna da diqqət çəkib.

***Sonra Dövlət Topaq və Xəritəçəkmə Komitəsinin sədri, BDU-nun kafedra müdiri Qərib Məmmədov, AMEA-nın şöbə müdiri İsmayıl Quliyev və ailə adından BDU-nun kafedra müdiri, professor Sevinc Hacıyeva çıxış ediblər.***

2 gün davam edən konfransda 5 bölmə üzrə 400-ə yaxın məruzə dinlənilib. “Ekoloji kimya və ətraf mühit” adlı bölmənin sədri, professor Sevinc Hacıyeva, “Ekoloji coğrafiya və ətraf mühit” adlı bölmənin sədri, professor Şövqi Göyçaylı, “Ekoloji biologiya və ətraf mühit” adlı bölmənin sədri, professor Nərminə Sadıqova və “Torpaqların ekologiyası” adlı bölmənin sədri, akdemik Qərib Məmmədov, “Cəmiyyət və ekoloji problemlər” adlı bölmənin sədri, dosent Abuyəli Hüseynlidir.

***Tamilla Müslümova***

# XATİRƏLƏRDƏN SİLİNMƏYƏCƏK İNSAN

***Əbədi olmayan bu həyatda elə insanlar var ki, onların zəngin mənəvi aləmi, zəhmət və hünərlə yaşanmış şərəfli ömür yolu özündən sonrakı nəslə bir örnək olur.*** Belə insanlar cismani ömürlərini başa vurduqdan sonra da yaddaşlara köçüb əbədiləşirlər. Çox mənalı ömür yolu keçmiş, Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olmuş Çingiz Həsənov da belələrindəndir.

Ömrünün ixtiyar çağında, 90 yaşının astanasında öz tale yolunu əks etdirən “Sizinlə və sizsiz” kitabında: “Düzü, heç vaxt xatirə yazmaq barədə fikirləşməmişəm. Ona görə yox ki, bunu ömrün kitab kimi səhifələnib bəziləri üçün keçmişə, bəziləri üçünsə əbədiyyətə qovuşmuş illəri üzündən bir nisgil, nostalji kimi qiymətləndirmişəm. Əksinə hesab etmişəm ki, qolunu çırmayıb yazmağa başlasan, anbaan, saatbasaat, günbəgün, ilbəil yaşadığın o xatirə ümmanına sanballı bir şey düşəcəkmi; tutduğun nə isə oxucular üçün maraq kəsb edə biləcəkmi; üstündən zamanın qalın toz qatını sıyırıb ortaya qoyduğun, ikinci bir həyat bəxş etdiyin mətləblər, hadisələr bir kimsənin rahat həyat düzəninə rahatsızlıq, ovqatsızlıq gətirməyəcək ki?” yazmışdı.

Həyatın keşməkeşlərindən hünərlə, alnıaçıq çıxmış Çingiz müəllim ömrünün 90-cı baharını bax belə nikbinliklə qarşılamışdı.”Az ömür yaşamamışam,” - deyə ömrünün 90-cı pilləsində ahıllıq zirvəsindən geriyə boylanarkən Tanrının onun qismətinə yazdığı yolu düz gəldiyinə, heç vaxt büdrəmədiyinə şükürlər etmiş, ”başqa cür mümkün də deyil” düşünmüşdü. Çünki bu yolun ta binadan mayasının, cövhərinin halallıqdan tutulduğunu, halal kişilərin çörəyini yediyini, əqidəli, prinsipial yol seçdiyini, namuslu ömür sürdüyünü söyləmişdi. Etiraf etmişdi ki, onu belə gümrah saxlayan işidir: universitet, tələbələri, veteranlar şurası, müxtəlif insanların qayğılarıdır.






***Çingiz Kərim oğlu Həsənov 1922-ci ildə Zəngəzur qəzasının Pusək kəndində anadan olmuşdur.*** Naxçıvan Muxtar Respublikasının Əbrəqunus rayonunda orta məktəbi və Naxçıvan Tibb Texnikumunu fərqlənmə diplomu ilə bitirmişdir. O zamankı mövcud qaydalara əsasən, texnikumu fərqlənmə diplomu ilə bitirənlər instituta imtahansız qəbul olunurdular. Ç.Həsənovun da sənədləri Tibb İnstitutuna göndərilir. Lakin arzuladığı müalicə-profilaktika fakültəsində yerlər dolduğundan, həmin il onun ali məktəbə qəbul olunması baş tutmur.

1938-ci ildə Çingiz Həsənov Əbrəqunus rayonunun Ərəfsə kənd tibb məntəqəsinə müdir təyin olunur. Həmin ilin payızında isə onu rayon səhiyyə şöbəsinə sanitariya maarifi üzrə inspektor vəzifəsinə təyin edirlər. Və o, burada işləyə-işləyə ali məktəbə hazırlaşır. Lakin 1940-cı ildə əsgəri xidmətə çağırıldığı üçün ali təhsil almaq istəyi təxirə düşür.

***Çingiz Həsənov 1435 gün çəkən və dünya müharibələri tarixində öz nəticələrinə görə ən dəhşətlisi sayılan Böyük Vətən müharibəsini ordu sıralarında qarşılayır.*** Dəhşətli müharibə uzandıqca, amansız döyüşlər birbirini əvəz etdikcə o, şəhərlər adlayıb, sərhədlər keçir. Moskva, Kursk, Volqoqrad şəhərlərinin, Belorusiyanın və Ukraynanın faşist işğalçılarından azad edilməsi uğrunda gedən döyüşlərdə böyük rəşadətlər göstərir. Onun döyüş xidmətləri orden və medallarla qiymətləndirilir. Müharibədən sonra vətənə baş leytenant rütbəsində, ikinci dərəcəli əlil kimi qayıdır.



Ordu sıralarından tərxis edildikdən sonra müxtəlif vəzifələrdə işləsə də, BDU-ya olan sevgisi onu 1948-ci ildə universitetin hüquq fakültəsinə gətirir. Fəal tələbə kimi fakültənin ictimai həyatında yaxından iştirak edir. 1950-ci ildə 4-cü kurs tələbəsi ikən Universitet Birləşmiş Həmkarlar Komitəsinin sədri seçilir.

Təhsilini başa vurduqdan sonra Ç.Həsənov universitetdə saxlanılır. 1956-cı ildə o, namizədlik dissertasiyasını müdafiə edir. Universitet müəllimi olmağı ilə həmişə qürur duyan Ç.Həsənov bu elm ocağının adını həmişə ucu tutur. O, eyni zamanda müxtəlif sahələrdə bir sıra məsul vəzifələrdə də işləyir. 1968-1987-ci illərdə Azərbaycan Kooperativlər İttifaqının İdarə Heyətinin sədri, 1988-ci ildən ömrünün sonunadək Respublika Veteranlar Şurasında Sosial problemlər üzrə daimi komissiyanın sədri, 1993-cü ildən Şura sədrinin müavini vəzifələrində çalışmışdır.

Onun istər Böyük Vətən müharibəsində, istər dinc quruculuq illərində, istərsə də respublikamızın müstəqillik dövründəki fəaliyyəti yüksək qiymətləndirilmişdir. Ç.Həsənov “Qırmızı Ulduz”, birinci və ikinci dərəcəli “Vətən müharibəsi”, iki dəfə “Şərəf nişanı” ordenləri, 25 medal, Azərbaycan Respublikası Ali Sovetinin fəxri fərmanları ilə təltif olunmuş, Prezident təqaüdünə layiq görülmüşdür.

Çingiz Həsənovun fəaliyyət dövrü özünün siyasi mündəricəsinə, ictimai məzmununa və tarixi siqlətinə görə çox maraqlı və zəngin bir zaman kəsiyini əhatə edir. Müharibədən öncəki və sonrakı mərhələ - Azərbaycanın dirçəliş illəri, böyük şəxsiyyət və dövlət adamı Heydər Əliyevin rəhbərliyi altında respublikamızda gedən vüsətli quruculuq işləri və tariximizin bugünkü yüksəlişi... Bütün bunlar nəinki onun gözləri qarşısında cərəyan etmiş, Ç.Həsənov həm də bu hadisələrin birbaşa iştirakçısı olmuşdur.

***Və bu da son... Bir tale nağılı belədə başa çatdı... Biz ləyaqətlə yaşanmış və çoxlarına örnək ola biləcək bir insan ömrünün kiçik mənzərəsini yaratmağa çalışdıq.***

***Solmaz Babaşova***

# Akademik Vasim Məmmədəliyevin 70 illik yubileyi qeyd edilib



***Görkəmli alim, İlahiyyat fakültəsinin dekanı, Ərəb filologiyası kafedrasının müdiri, Əməkdar elm xadimi, akademik Vasim Məmmədəliyevin 70 illik yubileyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda Respublika elmi konfransının plenar iclası keçirilib.***

***Plenar iclası giriş sözü ilə açan rektor, akademik Abel Məhərrəmov*** deyib ki, akademik Vasim Məmmədəliyev haqqında görkəmli ərəbşünas alim, təlim-tədris təşkilatçısı, ictimai xadim, xeyirxah, yaradıcı ziyalı kimi danışmaq mümkündür. Ölkəmizin çiçəklənməsi üçün bütün bilik və bacarığını ortaya qoyan Vasim müəllim nəinki Azərbaycanda, onun hüdudlarından çox-çox kənarda da millətimizə həmişə başucalığı gətirir. Vasim müəllimin bu böyük irsindən gənc alimlər, tələbələr faydalanırlar. Onun yazdığı dərslik, dərs vəsaitləri, metodiki vəsaitlər, etdiyi tərcümələr, elmi-publisistik məqalələr hər zaman aktualdır, dövrlə, zamanla səsləşir. Çünki bu əsərlərin bir ucu tarixi ənənələrə söykənirsə, o biri ucu bugünkü həyatın axarına uyğundur. Yeniliyə, müasirləşməyə səsləyən hər bir yaradıcı əmək heç vaxt təsirsiz qalmaz. Onun Ziya Bünyadovla birlikdə Qurani-Kərimin Azərbaycan dilinə izahlı tərcüməsini isə xüsusilə qeyd etmək lazımdır.

***Rektor xüsusi olaraq vurğulayıb ki, 1959-cu ildən taleyini Bakı Dövlət Universiteti ilə bağlayan Vasim müəllim burada fəaliyyət göstərdiyi ayrı-ayrı vəzifələrdə həmişə öz sözünü deməyi bacarmış, dəyərli məslələhətləri, yüksək elmi səviyyəsi, geniş erudisiyası ilə bütün kollektivin rəğbətini qazana bilmişdir.*** Vasim Məmmədəliyevi universitetin sütunlarından hesab edən rektor onun BDU-dan elmin zirvələrinə ucaldığını, elm və xalq qarşısındakı böyük xidmətlərinə görə "Əməkdar elm xadimi" fəxri adına və Prezident təqaüdünə, "Şöhrət" və "Şərəf" ordenlərinə layiq görüldüyünü, AMEA-nın həqiqi üzv seçildiyini bildirib.

***Sonra Vasim Məmmədəliyevin həyatı, elmi-pedaqoji və ictimai fəaliyyəti ilə bağlı şərqşünaslıq fakültəsinin dekanı, dosent Elxan Əzizov çıxış edib.***

***Şeyxülislam Hacı Allahşükür Paşazadə, Təhsil naziri Misir Mərdanov, Moskva Dövlət Universitetinin Bakı filialının rektoru Nərgiz Paşayeva, ARDNŞ-nin vitse-prezidenti Xoşbəxt Yusifzadə, akademik Ziyad Səmədzadə, millət vəkili Fəttah Heydərov, Yasamal rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev, Bakı Slavyan Universitetinin rektoru Kamal Abdulla, Azərbaycan Texniki Universitetinin rektoru Havar Məmmədov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Yusif Məmmədov, Metropolitenin rəisi Tağı Əhmədov, AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva, AMEA-nın müxbir üzvü Vaqif Abbasov, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov da çıxış edərək yubilyarı təbrik ediblər.***

Sonda çıxış edən akademik Vasim Məmmədəliyev bütün tədbir iştirakçılarına və təşkilatçılarına təşəkkürünü bildirib.

***Məryəm Abdullayeva***

# Çingiz Abdullayev BDU-da

Azərbaycan Yazıçılar Birliyinin katibi, yazıçı-publisist Çingiz Abdullayev Bakı Dövlət Universitetinin biologiya fakültəsinin professor-müəllim və tələbə heyəti ilə görüş keçirib.

Tədbirdə çıxış edən biologiya fakültəsinin dekanı, professor Akif Quliyev bu görüşün məhz biologiya fakültəsinin tələbələri ilə keçirilməsinə görə Çingiz Abdullayevə xüsusi minnətdarlığını bildirib. Xalq yazıçısı özünə doğma hesab etdiyi Bakı Dövlət Universitetinin tələbələri ilə yazıçı karyerası haqqında danışıb.

Azərbaycanda kitab oxuyanların sayının az olduğundan gileylənən Çingiz Abdullayev tələbələrə daha çox kitab oxumağı tövsiyə edib. Daha sonra görkəmli yazıçı biologiya fakültəsinin tələbə - oxucularının suallarını cavablandırıb.





# Vladimir Tahirov - 80

# ŞƏRƏFLİ ALİM ÖMRÜ

***Görkəmli Azərbaycan fiziki, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvi, fizika-riyaziyyat elmləri doktoru, professor Tahirov Vladimir İsmayıl oğlunun 80 yaşı tamam olur.***



Vladimir Tahirov 1932-ci il aprelin 5-də Qərbi Azərbaycanın Sisian rayonunun Urud kəndində anadan olub. İbtidai təhsilini Urud kəndində, orta təhsilini isə qonşu Vağədi kəndində alıb. 1949-cu ildə ikiillik Ağdam Dövlət Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsinə daxil olub,1951-ci ildə oranı bitirib, Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) fizika-riyaziyyat fakültəsinin fizika şöbəsinə daxil olub. BDU-nu 1956-cı ildə bitirdikdən sonra iki il Laçın rayonun Pircahan və Cicimli kəndlərində orta məktəbdə fizika və riyaziyyat müəllimi işləyib.

V.Tahirovun elmi fəaliyyəti 1958-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Fizika-Riyaziyyat İnstitutunun aspiranturasına daxil olduqdan sonra başlayıb. O, görkəmli sovet fiziki H.Abdullayevin rəhbərliyi altında fizikanın ən aktual problemlərindən biri olan "Radioaktiv izotoplar vasitəsilə müxtəlif yarımkeçirici maddələrdə fiziki hadisələrin tədqiqi" mövzusunda elmi tədqiqat işlərinə başlayıb. Aldığı yeni nəticələri namizədlik dissertasiya işi kimi 1962-ci ildə Sverdlovsk şəhərində "Metalşünaslıq" İnstitutunda müvəffəqiyyətlə müdafiə edib.

Alimin elmi fəaliyyətinin sonrakı mərhələsi müasir elm və texnikada geniş tətbiq olunan germanium və silisium kristalları əsasında bərk məhlulların, güclü buxarlanan komponenti olan peritektik birləşmələrin monokristallarının alınması texnologiyası, dəşik tipli yarımkeçiricilərdə dərin donor səviyyələrinin aşkar edilməsi üçün yeni üsul təklif edilməsi ilə bilavasitə bağlı olub. 1971-ci ildə müsabiqə yolu ilə Fizika İnstitutunda laboratoriya müdiri vəzifəsinə seçilib. 1972-ci ildə doktorluq dissertasiyası müdafiə edərək "fizika-riyaziyyat elmləri doktoru" alimlik dərəcəsi alıb. Ona 1973-cü ildə "professor" elmi adı verilib.

***Elmi işlə paralel pedaqoji işə olan marağı professoru 1974-cü ildə Bakı Dövlət Universitetinə gətirib;*** müsabiqə yolu ilə o, təhsil aldığı doğma universitetin fizika fakültəsində Yarımkeçiricilər fizikası kafedrasının müdiri seçilib və 1990-cı ilə qədər bu vəzifədə çalışıb. Universitetdə işlədiyi illərdə o, elmi fəaliyyətini daha da genişləndirib, mürəkkəb yarımkeçiricilərin və bərk məhlulların alınması və tədqiqi sahəsində böyük bir məktəb yaradıb. Rəhbərlik etdiyi dövrdə kafedranın parlaq elmi uğurlarından biri dünyada ilk dəfə olaraq Mendeleyev cədvəlinin I, III və VI qrupuna daxil olan elementlər əsasında yeni üçqat yarımkeçirici birləşmələr sinfinin kəşf edilməsidir. Həmkarları ilə birlikdə prof.V.Tahirov ilk dəfə nəzəri olaraq yeni bir sinfə mənsub olan kimyəvi birləşmələrin mövcudluğunu göstərib, bu sinfə aid olan 10-dək yeni yarımkeçirici birləşmələrin monokristallarını almış və onların fiziki xassələrini tədqiq edib. Alimin fikrincə, bu sinfə daxil olan 45-ə qədər yeni birləşmə alına bilər ki, onlar da xalq təsərrüfatının müxtəlif sahələrində geniş tətbiq tapa bilər.

***Elmi işlə yanaşı olaraq V.Tahirov kadr hazırlığı sahəsində də gərgin əmək sərf etmişdir.*** Ötən illər ərzində onun rəhbərliyi altında 7 doktorluq və 36-dan çox namizədlik dissertasiyası müdafiə edilib. O, çoxlu sayda kitabın elmi redaktoru olub və külli miqdarda doktorluq və namizədlik dissertasiyalarına opponentlik edib. Onun hazırladığı kadrlar hazırda respublikanın və bir sıra xarici ölkələrin elmi müəssisələrində çalışır və elmi-tədqiqat işlərini müvəffəqiyyətlə davam etdirirlər.

***O, görkəmli alim olmaqla yanaşı həm də gözəl pedaqoqdur.*** Uzun illər ərzində tələbələrə "Yarımkeçiricilər fizikası" və "Ümumi fizika" kursu üzrə yüksək səviyyəli mühazirələr oxuyur, geniş miqiyaslı tədris-metodiki işlər aparır. Professor "Ümumi fizika" kursuna və yarımkeçiricilər fizikasına aid 10 dərslik, 6 monoqrafiya və 35-dən artıq patentin müəllifidir. Bu illər ərzində yaxın və uzaq xaricdə dərc edilən sanballı jurnallarda 400-dən artıq elmi məqalə çap etdirib, bir sıra beynəlxalq konfranslarda məruzə ilə çıxış edib və Azərbaycan elminin təbliği sahəsində gərgin əmək sərf edib. Apardığı elmi, pedaqoji və ictimai fəaliyyəti daima ictimaiyyətin diqqət mərkəzində olaraq yüksək qiymətləndirilmişdir.

***V.Tahirov görkəmli elmi nailiyyətlərinə görə 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilib və 2012-ci ildə Avropa Mətbuat və Yayım evi tərəfindən qızıl medalla mükafatlandırılıb.***

Qeyd etmək lazımdır ki, V.Tahirov fizika sahəsində görkəmli alim olmaqla yanaşı həm də şeir həvəskarıdır və özü də gözəl şeirlər yazır. Onun "Urud mənim sinəm üstə çarpaz dağ" adlı şeir kitabı oxucuların böyük rəğbətini qazanmışdır.

Görkəmli alim, mahir pedaqoq, bacarıqlı elm təşkilatçısı prof.V.Tahirov bu gün də - ömrünün müdrik çağında da səmərəli elmi-pedaqoji və ictimai fəaliyyətini uğurla davam etdirir.

***Anadan olmasının 80 və elmi -pedaqoji fəaliyyətinin 60 illiyi ilə əlaqədar olaraq onu ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.***

**"Bakı Universiteti"**

# 15 noyabr 1919-cu il... BDU-da ilk dərs günü

Azərbaycan təhsil müəssisələrinin flaqmanı olan Bakı Dövlət Universiteti 1919-cu il sentyabr ayının 1-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən təsis edilib. Hələ 1871-ci ildə çar II Aleksandr Tiflisdə olarkən şəhər idarəsi burada bütün xərcləri özləri tərəfindən ödənilməklə universitet açılması xahişi ilə ona müraciət etsə də, bu xahiş yerinə yetirilməmişdi.

Rusiyada 1917-ci il Fevral inqilabından sonra yaranan müvəqqəti hökumətin maarif naziri S.F.Oldenburq Tiflis şəhər dumasına məktub-teleqram göndərərək xahiş edir ki, Cənubi Qafqazda açılması nəzərdə tutulan yeganə ali məktəbin - Tiflis "rus universitetinin" layihə və smetasını qısa zamanda hazırlayıb hökumətin müzakirəsinə təqdim etsinlər. Bu, əslində çar bürokratiyasının müstəmləkə əsarəti altında olan xalqlara qarşı yeritdiyi siyasətin, xüsusən maarif və mədəniyyət sahəsindəki siyasətin əsaslı şəkildə tənəzzülü demək idi. Tiflisdə "rus universiteti"ni açmaq üçün yerli ali qadın kurslarının professorlarından ibarət komissiya yaradılır. Bu komissiyaya görkəmli alim və cərrah, pedaqoq, üç universitetin - Saratov (1909), Tiflis (1918) və Bakı (1919) universitetlərinin yaradılmasında mühüm rol oynamış professor V.İ.Razumovski başçılıq edir.

1919-cu il mayın əvvəllərində Azərbaycan hökuməti Bakı Dövlət Universitetinin təsis edilməsi ilə əlaqədar sənədləri və müvafiq tədbirləri hazırlamaq, eləcə də universitetin açılmasını sürətləndirmək üçün Xalq Maarif Nazirliyi nəzdində universitet komissiyasının yaradılması haqqında 8 maddədən ibarət olan əsasnamə qəbul edir.

Komissiyanın 21 may 1919-cu ildə keçirilən birinci iclasında Xalq Maarif Naziri Rəşid bəy Qaplanov çıxış edərək universitetin açılması barədə hökumətin mövqeyinin qəti olduğunu və bütün arzu edənlərin burada təhsil ala biləcəklərini bildirir. O göstərirdi ki, hökumət universitetin açılması və avadanlıqla təchiz edilməsi üçün lazım olan vəsaiti əsirgəməyəcək.

Universitet komissiyası qısa zamanda gərgin əmək sərf edərək böyük, səmərəli işlər görür. Belə ki, onlar may ayının 31-də Bakı Dövlət Universitetinin açılması haqqında bəyannamə, Bakı şəhərində Dövlət universitetinin təsis edilməsi haqqında qanun layihəsi və ona əlavə edilən izahlı qeydlər, Universitetin nizamnaməsi və 1919-1920-ci tədris ili üçün tarix - filologiya fakültəsinin tərkibində Şərq şöbəsi olmaqla ştat və smeta layihəsi kimi mühüm sənədləri hazırlayıb Xalq Maarif Nazirliyinə təqdim edirlər.

İyun ayının axırlarında vaxtdan səmərəli istifadə edən universitet komissiyası Maarif Nazirliyinə təqdim etdiyi qanun layihəsi əsasında universitetin təşkili, qurulması və avadanlıqla təchiz edilməsi üçün ona 3,5 milyon manat ayrılmasını xahiş edir. Universitetin açılmasına böyük əhəmiyyət verən hökumət Maarif Nazirliyindən qısa müddətdə gələn bu sənədi o dövrdə ciddi maddi sıxıntı keçirməsinə baxmayaraq həmin vəsaiti hətta artırıb 5 milyona çatdırır.

Hökumətin qəbul etdiyi sənədlər 1919-cu ilin iyul-avqust aylarında əvvəlcə parlamentin qanunvericilik, büdcə-maliyyə komissiyalarında və parlamentdə təmsil olunan partiyaların fraksiyalarında qızğınlıqla müzakirə olunur. Bu müzakirələr zamanı aydın olur ki, ictimaiyyətin, hökumətin və həm də parlamentin içərisində universitetin açılmasının əleyhdarları da var. Universitetin açılmasına qarşı çıxanlar belə hesab edirdi ki, tədrisin rus dilində aparılması buraya dəvət olunan rus professorlarına tələbələr arasında ruslaşdırma təbliğatı aparmaq imkanı verəcək.

Hətta belə təkliflər də səslənir ki, Azərbaycan üçün universitet yaratmaq əvəzinə, müəyyən sayda gənci təhsil almaq üçün Qərbi Avropaya göndərmək daha sərfəlidir. Göründüyü kimi, bu zaman universitetin bir mədəniyyət ocağı kimi bütün bölgə üçün əhəmiyyəti, həm də onun təkcə himayəsi və maddi imkanı olan bir qrupa deyil, maariflənmək, çiliklərə yiyələnmək, dünya mədəniyyətinə qovuşmaq arzusunda olanların hamısına xidmət göstərəcəyi ya unudulur, ya da qəsdən yada salınmırdı. Hər bir halda bunun təsadüfi deyil, qəsdən müəyyən qüvvələr tərəfindən yönəldilən bir proses olduğunu bu gün aydın görmək olur və buna heç bir şübhə qalmır.

Vəziyyətin belə olduğunu görən universitet komissiyasının sədri V.İ.-Razumovski hökumətin, parlamentin nüfuzlu üzvləri və ictimaiyyət arasında söz sahibi olan qabaqcıl ziyalılarla görüş keçirib onları əmin edir ki, yeganə məqsədləri gənclərə elm öyrətməkdən ibarət olacaq.

Universitetin əleyhinə olan əsassız iddialar mütərəqqi və uzaqgörən parlament üzvləri və qabaqcıl ziyalılar tərəfindən qətiyyətlə rədd edildi. Üç aylıq gərgin müzakirələrdən sonra Azərbaycan parlamenti 1919-cu il sentyabrın 1-də ictimai fikir tariximizdə, elmin, maarifin inkişafında əvəzedilməz xidməti olan ilk universitetin açılması haqqında bütün çətinliklərə, maneələrə baxmayaraq, qanun qəbul edir.

"Bakı şəhərində dövlət universitetinin təsis edilməsi haqqında" adlanan on maddədən ibarət bu qanunda universitetin dörd fakültədən ibarət olması göstərilirdi: şərq şöbəsi ilə birlikdə tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələri.Qanunun onuncu maddəsində göstərilirdi ki, Bakı şəhərində Dövlət Universiteti 1919-cu il sentyabrın birindən açılmış hesab olunur. İctimaiyyətin narahatlığını nəzərə alaraq qanunun 2-ci maddəsinin 2-ci bəndində göstərilirdi ki, bütün fakültələrdə türk dili məcburi fəndir.

1919-cu il noyabrın 15-də şənbə günü universitetdə birinci dərs günü elan edilir. Bu xəbər xalqımızda, o cümlədən ziyalılar, ictimai-siyasi xadimlər arasında böyük razılıqla qarşılanır.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının milli sərvəti adlandırdığı 94 yaşlı Bakı Dövlət Universiteti lider mövqeyini qoruyub saxlayır və ali təhsİlin, elmin tərəqqİsi namİnə əvəzsiz xidmətlərini davam etdirir...

***Pərvanə İbrahimova,***
***Mətbuat və informasiya şöbəsinin müdiri***

# "Qışlayan su-bataqlıq quşlarının təyin edilməsi və monitorinqi" mövzusunda təlim keçirilir

Ekologiya və torpaqşünaslıq fakültəsinin "Bioekologiya" kafedrası və Almaniya-Azərbaycan Əməkdaşlıq birliyinin 26-30 noyabr tarixində birgə təşkil etdiyi "Qışlayan su-bataqlıq quşlarının təyin edilməsi və monitorinqi" mövzusunda təlim keçirilir.

Təlimin ilk günü Bakı Dövlət Universitetində xarici mütəxəssislər tərəfindən su-bataqlıq quşlarının təyin edilməsi haqqında ilkin məlumat verilib. Təlim çərçivəsində 27-29 noyabr tarixində "Bioekologiya" və "Onurğalılar zoologiyası" kafedrasının əməkdaş və magistrantlarının Salyan rayonuna çöl təcrübəsi ezamiyyəti nəzərdə tutulub.

# Biblioqrafiya dərnəyinin iclası

***Tələbə Elmi Cəmiyyəti tələbələrin maraq dairəsini genişləndirmək və onların öz bilik və bacarıqlarından düzgün istifadə etmələri üçün yeni-yeni dərnəklər təşkil edir. Bu dərnəklərdən biri də biblioqrafiya dərnəyidir.***





Tələbə Elmi Cəmiyyətinin xətti ilə biblioqrafiya dərnəyinin məlumat xarakterli ilk iclası keçirilib. İclasda Kitabxanaşünaslıq kafedrasının müəllimi, Tələbə Elmi Cəmiyyətinin kitabxanaçılıq-informasiya fakültəsi üzrə sədri Akif Cəfərov, kitabxanaçılıq-informasiya fakültəsinin dekanı Azad Qurbanov, Biblioqrafiya kafedrasının kafedra müdiri Nadir İsmayılov, Biblioqrafiya kafedrasının baş müəllimi Sima İsmayılova və fakültənin biblioqrafiya dərnəyinə üzv olan tələbələri də iştirak ediblər. İclası Tələbə Elmi Cəmiyyətinin fakültə üzrə sədri Akif Cəfərov açıb və tələbələrə cəmiyyətin keçmişdəki, indiki fəaliyyəti və gələcək nailiyyətləri haqqında öz fikirlərini çatdırıb.

Daha sonra Sima İsmayılova iclasda biblioqrafiya haqqında öz fikirlərini tələbələrə belə ifadə edib: "Sosial həyatın müasir inkişaf səviyyəsi, orada gedən çox dərin dəyişikliklər informasiya sisteminin, o cümlədən də biblioqrafik informasiyanın qarşısında ciddi tələblər qoyur. Bu biblioqrafik informasiya tələbatçılarının fəallaşması və bu tələbatlarda milli-mənəvi istiqamətlərin formalaşması, həmçinin bəşəri mənəvi dəyərlərə yiyələnmək zərurəti ilə də bağlıdır. Biblioqrafik fəaliyyətin müasir təşkili prosesində demokratik prinsiplər əsas tutularaq tələbatçıların biblioqrafik informasiya tələbatlarının təminatında hər cür ideoloji məhdudiyyətlərə son qoymuşdur."

Biblioqrafiya kafedrasının kafedra müdiri də yuxarıdakı fikirləri təsdiqlədi və biblioqrafiya dərnəyinin tələbələrin gələcək nailiyyətləri üçün mühüm bir yol olduğunu söylədi. Nadir İsmayılov tələbələrin suallarını da cavablandırdıqdan sonra: "Hər bir elmi nailiyyətin başlanğıcı biblioqrafiyadan keçir," - sözləri ilə iclası bağladı.

**Həbib İmanov,**
**kitabxanaçılıq-informasiya fakültəsi,**
**III kurs**

# Məntiqini yoxla

**Üç tələbə uşaq bağçasında təcrübə keçirdi. Alınmış tapşırığa əsasən onlar problemli bir uşağı müşahidə edərkən dəftərlərində qeydlər aparırdılar.**

***Sahibin qeydləri:*** "Uşaq əvvəlcə maşınla, sonra qatarla oynadı. Səhər yeməyini yedi, alma şirəsini içdi, sonra rəsm albomunda yaşadığı evi təsvir etdi".

***Kəmalənin qeydləri:*** "Əvvəlcə o, top ilə oynadı, sonra uşaq kompüteri ilə məşğul oldu. Kökə yedi, meyvə şirəsi içdi. Plastilindən əsgər fiqurları düzəltdi".

***Lalənin qeydləri:*** "Əvvəlcə o, maşınla, sonra qatarla oynadı.



Səhər yeməyinə bir tikə alma kətəsi yedi, üstündən süd içdi. Uzun müddət şəkil çəkdi".

***Nəzərə alın ki:***

1) Bir tələbə bir fakt istisna olmaqla, bütün faktları səhv qeydə alıb.

2) Bir tələbənin bütün qeydləri dəqiqdir.

3) Digər tələbənin müşahidələrində isə yalnız bir səhv fakt tapılmışdır.

Müşahidələrində yalnız bir səhv fakt olan tələbənin adı nədir?

A) Kəmalə B) Lalə C) Sahib D) Bunu müəyyən etmək mümkün deyil

***Xumarxanım Dadaşova***
***Coğrafiya fakültəsi, magistrant***



***Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin III kurs tələbəsi İsa Əliyevin "Könül dəryası" adlı şeirlər kitabı işıq üzü görüb. İ.Əliyevin şeirlərindən birini təqdim edirik:***

## Sanırdım

Gülüm,səndən öncə,sanki,ölüydüm
Dünyanı mənasız,əbəs sanırdım.
Xəyanət etmişdi sevdiyim insan,
Özümü ürəkdən şikəst sanırdım.

Gedişi sakitcə,sezilməz oldu,
Hirsimdən göz yaşım süzülməz oldu,
Bir müddət ayrılıq dözülməz oldu,
Duyduğum hər səsi o səs sanırdım.

Aldandım yox ikən təqsir,günahım,
Mənə həmdəm oldu naleyi-ahım,
Nə dünənim vardı,nə də sabahım,
Həyatı aldığım nəfəs sanırdım.

Güldürdün hər şeyə nifrət edəni,
Firavan həyata döndərdin məni,
Özüm də bilmədən sevmişəm səni,
Mən səni keçici həvəs sanırdım.

## Ay vəfasız...

Ay vəfasız,eşitdim ötən bazar toyunmuş,
Qəlbim son ümidini
o axşam çıxardığın
duvaq kimi soyunmuş...
Bildim -sevgi səníncün əyləncəymiş, oyunmuş...
Saxtaymış məhəbbətin! Vallah,onu da bildim!
Bircə şeyi bilmədim-
Axı necə oldu ki,məni unuda bildin?!

***

İnsafın yoxmuş sənin!
Bura qədərmi deyim?
Yaxşı ki tez ayrıldıq!
Buna kədərmi deyim?!
O şirin günlərimə
İndi hədərmi deyim?!
Məəttələm sənə mən-gör neçə xatirəni
sakit uyuda bildin...
Axı necə oldu ki,məni unuda bildin?!

***

Yadındamı sığınıb söyüdün kölgəsinə,
Qulaq asardım sənin sevgi dolu səsinə?!
İndi necə deyirsən onları özgəsinə?
Danış!
Bəlkə o ömrə bir də qayıda bildin...
Axı necə oldu ki,məni unuda bildin?!

***

Görən tapacaqmısan səadəti ərində?
Axı səninləyəm mən dünyanın hər yerində...
Onunla keçirdiyin o vüsal dəmlərində
Çaşıb mənim adımı
Neçə yol uda bildin?
Axı necə oldu ki,məni unuda bildin?!

***Fikrət***

# Cəmiyyətdə psixoloqa yanaşma

***Əvvəlcə "Psixologiya nədir?" sualına cavab verməyə çalışaq. Cəmiyyətdə baş verən bütün hadisələr, hərəkətlər və ümumilikdə hər bir şey psixologiyaya birbaşa aiddir. Psixologiya psixika haqqında elmdir. Psixika obyektiv aləmin subyektiv inikasıdır. Bu cümləni analiz edək. Məsələn, müəllim lövhədə qeyri-adi, ilk baxışda müəyyənləşdirilməsi çətin olan bir xətt və ya hər hansı bir şəkil çəksə, auditoriyada əyləşən tələbələrin hər biri onu öz şüur, qavrayış və təxəyyülünə uyğun şəkildə başa düşəcək.***

Və ya hər hansı bir hadisəni görən şəxs (hansı ki hadisəni kənardan müşahidə edib, hadisənin səbəbindən tam xəbərdar deyil) onu özünə uyğun şəkildə analiz edəcəkdir. Bu misallarımızda lövhədəki xətt, hadisə obyektiv aləmdir, onu görən şəxs isə xətti və hadisəni subyektiv şəkildə öz təsəvvüründə, təxəyyülündə əks etdirdi. Bütün bu misallar psixikanın mənasını daha yaxşı əks etdirir. Kurt Levinə görə, "insan onu əhatə edən cisimlərdən təşkil olunmuş "psixoloji sahə" də yaşayır və inkişaf edir. Hər bir predmet insan üçün müəyyən valentlik təşkil edir. Əşyalar bir



növ mənfi və ya müsbət reaksiya yaradır. Ümumiyyətlə, bir peşə kimi isə psixologiya - psixoloji məlumatların insan problemlərini həll etmək üçün istifadə edilməsidir".

Bəzən insan həyatda elə situasiyalarla rastlaşır ki, o, özünü sanki çıxışsız bir labirintdə hiss edir. Bu zaman bizə təcrübəli psixoloqlar kömək ola bilər. Onlar artiq bu "labirint"in çıxışlarını bilir və bizə bu sınaqdan çıxmağa kömək edə biləcək insanlardır. Amma bəzən insanlar psixoloqlar yerinə digər vasitələrdən istifadə etməyi üstün tuturlar. ***İnsanlar niyə psixoloqlara yox, başqa yerlərə, məsələn, "dost"lara, "falçı"lara üz tutur, psixoloqları isə "dəli həkimi" və ya bəzən "baxıcı" kimi qələmə verirlər?!*** *Onlar psixoloq yanına getməmələrinin səbəbini "Mən dəli deyiləm ki", "Camaat nə deyər?", "Sonra camaat məni dəli hesab edər" və s. bu kimi fikirlərlə izah edirlər.* Bir növ onlar başqalarına görə yaşayırlar. Onlar hər addımında özlərinin yox, məhz "camaat"ın nə düşündüyünə önəm verirlər. Əslində isə təcrübəli psixoloqdan obyektiv məsləhət almaq daha doğru sayılar. O, sizin keçirdiyiniz hisslərə psixoloq mövqeyindən yanaşacaq və ən əsası, sizi olduğunuz kimi qəbul edəcək.

***Mən deyərdim ki, bütün bunlar cəmiyyətdə psixoloqun vəzifələrinin başa düşülməməsindən qaynaqlanır.*** Hər bir insan zaman-zaman çətin günlər keçirə bilər və bu dövrlərdə bütün ehtiyacı yaxşı bir dostun onu dinləməsi, anlaması və yanında olub ona dəstək verməsi ola bilər. Ancaq insanlar bəzən həlli vacib olan problemlərini özlərinin dost kimi qəbul edə bildikləri dostlarına deyir, onlardan bəzən yanlış məlumatlar alırlar. Ən yaxşı dostunuz belə, bu problemlər qarşısında siz sevinəsiniz və ya üzüləsiniz deyə, ya da eyni problemi təkrar-təkrar danışmağınızdan narahatlıq duymasın deyə məsələyə obyektiv yanaşmayacaq. Ancaq əslində isə bəzən içində olduğumuz emosional vəziyyətdə qalmağımız və mövzunu kifayət qədər anlayana qədər təkrar-təkrar danışmaq son dərəcə çox əhəmiyyətlidir. Çünki insan problemini nə qədər çox təkrar edərsə, ən əsası, dilinə gətirərsə, o zaman, bəlkə də, unutduğu, I fikir vermədiyi səhvini tapa bilər, ya da məsələnin səbəbinin əslində başqa cür olduğunu, onu səhv başa düşdüyünü anlaya bilər. Həmişə bir situasiyanı unuduruq.

***Sizə yaxın olan bir insan heç də həmişə məsələyə obyektiv yanaşmayacaq. Çox zaman məsələyə sizin tərəfinizdən yanaşacaq.*** Çünki o, sizin yaxınınızdırsa, təbii ki, çox zaman məsələdə sizi günahlandırmayacaq. Dostlar bir probleminiz olduğunu unutmağınıza və müvəqqəti olaraq özünüzü yaxşı hiss etməyinizə kömək etməyə çalışırlar. ***Bir sözlə, dostlarla həll olunan problemlər müvəqqəti həll olunur, psixoloqla isə daimi...***

Psixoloqa sağlam, psixi cəhətdən normal insanlar müraciət edirlər. Psixoloq gündəlik həyatda problemləri olan (uğursuz nikah yaşamış insanlar, işdən çıxan, depressiyaya, stressə düşən, gələcəyə küskün olan, uğur qazanmaq istəyən və s.) insanlara kömək edir. *Psixoloqa ilk dəfə müraciət edən insanlar bəzən həyəcanlı olurlar. "Görəsən, məni başa düşəcək?", "Problemim həll olunacaq?", "Görəsən, mən də digərləri kimi (psixi cəhətdən) sağlam ola biləcəmmi?" və s. bu kimi fikirlər onları narahat edir.*

Psixoloqlar məsləhət zamanı problemin tam məğzini aydınlaşdırır, pasientə onun probleminin məğzi və reallığının səviyyəsi haqqında məlumat verir, qısa müddət ərzində problemin həllinə yönələn metod və üsulları seçir, pasienti öz probleminin həllinə istiqamətləndirir və ən sonda öz probleminin həlli mərhələsinə çatan pasientə əlavə kömək göstərir.

***Sevda Cəlilzadə,***
***Sosial elmlər və psixologiya fakültəsi, II kurs tələbəsi***

# 2209 nömrəli otaq




Bahar çoxdan bitib bu yerlərdə. Artıq çoxdandır, günəşin qızmar nəfəsi insanları əvvəlkitək isidə bilmir. Yamyaşıl təbiət, al-əlvan çiçəklər, quşların şən nəğmələri yoxdur bu əhvalatda... Payız gəlib insan ömrünə. Xəzan yeli əsir dayanmadan. Sanki insanı bir dünyadan digərinə, bir yuxudan digərinə aparır. Əlçatmaz xəyallar, həyatdan nəsibini almamış yüzlərlə arzular sanki buludlara dolub yağmur damlaları ilə yerə səpələnir. Yağışın hər damlası solan ümidlərin məzarı başında tökülən göz yaşı kimi torpağa qovuşur...

***Payız! Səndə nə var axı? Niyə həmişə dərd və sıxıntılardan danışanda, nakam sevgidən yazanda, ya da hüznlü bir mahnını oxuyanda sənə qonaq oluruq? Niyə füsunkar payız təsvirləri yaradan o dahi rəssam ora qəmli bir insanı əlavə edir həmişə? Bəlkə, sənin taleyindir bu?!*** Axı bir insanın kədərini səndən başqa hansı fəsil bu qədər məharətlə ifadə edər? Bəlkə də, oxşar talelərimizdir səni bizə bağlayan... Sən yaşanmış bir Baharın sonu olsan da, mənim qəmli əhvalatımın əvvəlisən...

Payız gecəsi. Qaranlıq və soyuq otaq. Vahiməli bir sükut, intizar və həyəcan dolu sakitliyin hökm sürdüyü, pəncərədəki ay işığının qaranlığa boyun əydiyi zülmət bir gecə. Sükutu yalnız insan nəfəsinin pozduğu, həyat nağılının sətir-sətir göz önündən keçdiyi və duyğuların riqqətə gəldiyi bu gecə bütün bir ömrün mühakiməsi gedirdi insan qəlbində. Sanki çəkdiyi iztirablar göz yaşı olub süzülürdü yanaqlarından. Otağın küncündə dizlərinə qapanıb səssizcə ağlayan qadının səsi şaxtalı qış gecəsində insanın iliyini donduran o sərt, amansız küləyin şirin nəğməsini xatırladırdı... Növbəyə durmuşdu göz yaşları, elə bil, illərdir, məhkum olmuşdu bu qəmli gözlərdə. Sırasını gözləmədən ondan öncəki göz yaşına çatmağa çalışırdı. Qəlbində alışan alovu söndürməli olan bu yaşlar indi onun məyus çöhrəsində silinməz izlər buraxaraq yuxarıdan aşağı süzülürdü. Fələk göz yaşları ilə onun həyatına öz imzasını atmışdı ...

***Birdən dəyişdi hər şey.*** Qaranlıqlar içindən bir cüt əl uzandı ona tərəf. Dağınıq saçlarına toxundu, hələ də seltək axan göz yaşını silib: "Ana, ağlama, mən gəlmişəm," - dedi. Qadın ağlamaqdan şişən gözlərini güclə aralayıb ay işığında gözləri işıq saçan bu məsum körpənin üzünə baxdı. Bu hörüklər... Aman Allah, bu hörükləri o, öz əlləri ilə körpə balasına hörmüşdü. Bəs bu qırmızı paltar haradandır? Axı bunu nənəsi gözünün ağı-qarası bircə nəvəsi üçün toxumuşdu. Bu mirvari boyunbağını isə atası ad günündə hədiyyə etmişdi ona. Araya bir qədər sükut çökdü. Elə bil, yuxudan oyandı qadın...

*(Ardı var)*

***Orxan Tağıyev,***
***Jurnalistika fakültəsi, II kurs***

# Qanun naminə

**Yenə yağış yağır... Bilirəm, deyəcəksiniz ki, bunun qanunla nə əlaqəsi var? İş ondadır ki, yağışın yağması təbiətin qanunudur. Payızdır, bir aydan sonra yerini qışa verəcək. Bəlkə də, o, pozduğu qanunauyğunluğun - bu mövsümdə yağa bilmədiyi günlərin əvəzinə dayanmadan yağır. Bəlkə də, vaxtında yağmağa başlasa idi, bu qədər tələtümlü olmaz, təəccüblə qarşılanmazdı. Bu səs təbiətin payız çalarlı səsi, zamanın yağış adlı nəğməsi, həm də insanlara ismarışıdır.**

Biz necə, işlərimizi hər zaman vaxtında, cəmiyyətin, dövlətin qanunlarına müvafiq olaraq qurur, qanun kitabımız olan Konstitusiyamızda verilən maddələrə uyğun davranırıqmı?

Yağış yağdığı məkanı yuyur, tozunu təmizləyir, şəffaflıq və canlanma yaradır. İnsan dirçəlmiş çiçəklərin yarpaqlarındakı damlaların titrək səsindən tutmuş dəniz dalğalarının gur səsinədək bir-birindən gözəl səsləri dinləməkdən zövq alır. Bu ecazkar səslər aləmi onu bir anlığa da olsa, gündəlik qayğılardan uzaqlaşdırır. Bəs insan qəlbinin səsi, arzusu, ali məqsədi nədir? Bu və digər səsləri dinləyən, haqqında danışan insan özü də yeni səs - ruhunun qidası olan musiqini yaradır. Musiqi təbiətin və canlıların səsini məhz həssas insan qəlbinin çırpıntıları və istedadı nəticəsində çiçək təravətli nəğmələrdə təcəssüm etdirir. İnsanlar da çiçəklər kimidir. Çiçək vaxtında lazımi miqdarda su ilə təmin edilmədikdə, günəş şüasından məhrum olduqda məhv olduğu kimi, insan da ədalətin olmadığı mühitdə xoşbəxt yaşaya bilmir, həyat nəğməsi bitir.

O nə zaman səadət tapır və sevilir? O zaman ki xalqın istiqbalı naminə mücadilə aparır, azadlıq qazanır, gözlərində ürəyinin fərəhi duyulur. Yer üzünə ürəyini məşəl edib xalqın həyat yolunu işıqlandırmağa, qolundakı zəncirləri qırmağa, yaraların sarımağa gələn, həyatını, sevgisini paylaşan insanların sayəsində azadlığa qovuşan Azərbaycanın həyatında yeni mərhələ başladı.

Ədalətli qanunları olan dövlətimiz ədalətlə də idarə olunmalıdır. Ədalət insanın səadətidir. Əsrlər boyu insan səadət naminə qanunun aliliyinə sığınsa da, zaman-zaman bəhs etdiyim çiçəklər kimi solmuşdur. Lakin indi taleyimiz öz əlimizdədir. Ötən əsrin sonlarında azadlıq qazanan xalqımız müstəqil həyata qədəm qoydu, söz, fikir, düşüncə, sərbəst toplaşmaq azadlığı qazandı, hüququnu bərpa etdi. 1921-ci il mayın 19-da ilk konstitusiyamız I Sovetlər qurultayında qəbul edilsə də, o zaman azad deyildik. 1995-ci il noyabrın 12-sində isə 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının referendum yolu ilə qəbul olunması xalqımızın həyatında yeni bir hadisəyə, ümidə çevrildi. Bu işdə ümummilli lider Heydər Əliyevin böyük xidmətləri olmuş, o, tarixi keçmişimizi və son illərin təcrübəsini təhlil edək müstəqil Azərbaycan üçün insan hüquqlarını qoruyan yeni bir Konstitusiya yaratmışdır. 2009-cu il martın 18-də keçirilən referendumda daha da təkmilləşdirilmiş Konstitusiyaya əlavə və dəyişikliklər qəbul olundu. Uzun illər azadlıqdan məhrum edilmiş xalqımız müstəqillik qazanmış, ürəyinin səsini şüurunda tənzimləmiş, iradəsi ilə qanun kitabını yaratmışdır. Bu qanunları bilmək, icra etmək vətəndaş kimi bizim yalnız borcumuz deyil, həm də ali məqsədimiz olmalıdır. Unutmayaq ki, azadlığa qovuşduğumuz məqamadək çətin, mürəkkəb olduğu qədər də şərəfli bir yol keçmişik. Azadlığımızı mübarizə apararaq qazanmışıq. Odur ki, gəlin haqq səsimizi aləmə bəyan etmək üçün, ilk növbədə, qanunlarımızı öyrənməkdə gecikməyək, müstəqilliyimizi qoruyaq, demokratik və sivil ölkə olduğumuzu, haqq səsimizi dünyaya yayaq, bədnam qonşularımızın əməllərini ifşa edək, qanuni haqqımız olan ərazi bütövlüyümüzün bərpasına nail olaq. Qanun naminə çalışmaq bizim ən ali məqsədimiz olmalıdır ki, həyatın bəzəyi, yer üzünün əşrəfi, ömrümüzün mənası olan çiçəklər susuzluqdan əziyyət çəkməsin, həyat nəğməsi bitməsin, Azərbaycanımız gülüstana çevrilsin.

***İlahə Dadaşova,***
***Filologiya fakültəsi,***

## — ETİBARSIZDIR —

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin III kurs tələbəsi Talıblı Tural Xanoğlan oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ekologiya və torpaqşünaslıq fakültəsinin III kurs tələbəsi Şirinova Nigar Elçin qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ekologiya və torpaqşünaslıq fakültəsinin III kurs tələbəsi Dadaşzadə Aytən Elçin qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Geologiya fakültəsinin II kurs tələbəsi Əliyev Samir Əli oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin III kurs tələbəsi Fərzəliyeva Vüsalə Əziz qızına məxsus qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Jurnalistika fakültəsinin III kurs tələbəsi Ismayılzadə Mehriban Nizami qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüquq fakültəsinin II kurs tələbəsi Kazımlı Gülnar Lazım qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ekologiya və torpaqşünaslıq fakültəsinin III kurs tələbəsi Sabirli Sabir Gündüz oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Tarix fakültəsinin II kurs tələbəsi Babazadə Qaffar Tofiq oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kitabxanaçılıq-informasiya fakültəsinin III kurs tələbəsi Sadıqzadə Aysel Qurban qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Özünü fəth etməyi bacar!
# Bakı Universiteti
№ 12 (1435) 25 noyabr 2012-ci il

SON SƏHİFƏ

## Tələbələrin nəzərinə!

***Xüsusi istedada, jurnalistlik qabiliyyətinə, yaradıcılıq bacarığına maliksinizsə və tanınmaq istəyirsinizsə "Bakı Universiteti" qəzetinə müraciət edin.***

**Psixoloq suallara cavab verir**

# 3 sual 3 cavab



**"3 sual 3 cavab" adlanan rubrikamız vasitəsilə qəzetimizə ünvanladığınız sualları Peşəkar Psixologiya Mərkəzinin rəhbəri Nuriyyə Quliyeva cavablandıracaq.**

***Sual:*** - Həyəcanlanan zaman əllərim hədsiz titrəyir. Hətta bu proses 5-10 dəqiqə davam edir. Sizcə, bu nə ilə əlaqədardır və bundan qismən də olsa, necə azad ola bilərəm?

***Cavab:*** - Həyəcan zamanı tərləmə, ürək döyüntülərinin artması, ağızda quruluq və s. kimi əlamətlər özünü göstərə bilər. Həyəcan hansı hallarda sizi narahat edir, aydınlaşdırın və həmin situasiyanı düşüncənizdə böyütməyin. Əksinə düşüncənizlə ona qalib gəlin! Amma bunlarla bərabər açıq havada gəzinti, doğru nəfəsi tənzimləmək sizə çox faydalı olacaq.

***Sual:*** - Artıq bir neçə aydır ki, dərslər başlayıb. Amma mən hələ də məktəb ab-havasından çıxa bilmirəm. Həm dərslər çox ağır gəlir, həm də qrup yoldaşlarımla ünsiyyət qura bilmirəm. Hətta tənəffüslərdə də telefonla sinif yoldaşlarımla danışmağa üstünlük verirəm. Xahiş edirəm, mənə məsləhət verəsiniz.

***Cavab:*** - Bu, normal haldır. Sizin məktəb həyatınız, sinif yoldaşlarınızla keçirdiyiniz vaxtlar sizdə xoş xatirələr olaraq özünə yer edib. Və siz indi onun axtarışındasınız. Həm siz, həm də qrup yoldaşlarınız üçün bu müddət adaptasiya dövrüdür. Əminəm ki, bir neçə ay sonra bir-birinizi daha yaxşı tanıdıqda bu düşüncəniz dəyişəcək.

***Sual:*** - Mən hamıya tez inanıram və sanki onları illərdir, tanıyırammış kimi rəftar edirəm. Nə qədər bu xarakterimlə mübarizə aparsam da, alınmır. Ətrafdakılar isə çox vaxt bu cür rəftarıma görə məni qınayırlar. Elə buna görə də dəyişmək istərdim. Sizcə, necə edim?



***Cavab:*** - Gəlin, ətrafdakı insanları unudaq. Bu, doğrudan da, sizi narahat edir, yoxsa başqaları dediyi üçün dəyişmək istəyirsiniz? Səmimi davranmağınızda, ünsiyyətcil olmağınızda qəbahətli bir şey yoxdur. Siz sadəcə diqqət edin ki, qarşınızdakı insan bundan sui-istifadə etməsin. Bunu tənzimlədiyiniz halda ciddi problem yaşayacağınızı düşünmürəm.

***Sual:*** - Ruhən tamamilə bir-birindən fərqli olan ikişəxsiyyətlilik yaşayan birisi nə vaxtsa idarənin bu şəxsiyyətlərdən hansında olacağını bilmirsə, bu, böyük bir problemdirmi? Əgər belədirsə, öhdəsindən necə gəlmək olar?

***Cavab:*** - İlk olaraq onu bildirim ki, ətraflı məlumat versə idiniz, tablo daha aydın olardı. Əgər hər hansı bir problemin həllində 2 fərqli düşüncə varsa, məntiqlə düşünüb, təhlil edib, qərar verməlisiniz. Amma anladığım qədəri ilə söhbət 2 fərqli düşüncədən getmir. Birbirinə tamamilə əks olan ikişəxsiyyətlilik hiss edirsinizsə, psixoloji yardım almağınızı məsləhət görərdim. Bu, o demək deyil ki, ciddi bir problem var, sadəcə mütəxəssislə görüşməyiniz faydalı olacaq.

***"Bakı Universiteti"***

**Redaktordan**

# İnternet asılılığı...



*Anzulə Əmirova*

Kitabla internetin eyni funksiya daşıdığını, hətta internetin kitablardan üstün olduğunu söyləyənləri anlaya bilmirəm. Gəlin kiçicik bir müqayisə aparaq. Kitab oxuyanların beyni daha yaxşı inkişaf edər, düşüncələri dərin olar, ətrafda baş verənləri rahat qavrayar, söz xəzinəsi artar, fikirlərini daha sərbəst, təsirli ifadə edərlər. Bəs internet necə, bütün bunlara qadirdirmi? Deyərdim ki, xeyr. *Çünki internetdə yazılanlar hər zaman ciddi, nizamlı, dəqiq, qərəzsiz, səliqəli, səlis olmur. Kitab müəllifinin daşıdığı məsuliyyəti, internetdəki "yazarlar"ın əksər hissəsi dərk etmir və ya önəmsəmir.*

Lakin bu da bir həqiqətdir ki, internet həyatımıza daxil olduğu gündən bəri bizi özünə bağlamaqda davam edir. Günün çox hissəsini internet qarşısında keçirənlərin sayı günbəgün artmaqdadır. Əslində isə internetdən gündə 4 saatdan artıq istifadə etmək təhlükəlidir. Bu, mütəxəssislərin fikridir. Amma əksəriyyətimiz günümüzün çox hissəsini internetə həsr edirik. Artıq bir çoxlarımız internetdən istifadəyə o qədər aludə olmuşuq ki, nəticədə sosiallaşmaq əvəzinə doğmalarımıza münasibətlərimiz belə dəyişib. Depressiya və psixi xəstəliklərə, ailədə soyuqluğun, söz-söhbətlərin yaranmasına və bəzi ailələrin dağılmasına səbəb olan internet cəmiyyətdə neqativ halların yaranma və yaşanma mənbəyinə çevrilib.

*Bəziləri internetlə kitabı müqayisə edərkən üstünlüyü birinciyə verirlər.* Qeyd etdiyim kimi, mən bu cür düşüncələrin əleyhinəyəm. Məncə, internet heç vaxt kitabı əvəz edə bilməyəcək. Kitab oxumaqla əldə edilən bilik tamam fərqlidir. İnternetdə ciddi və ya qeyri-ciddi xəbərlər, yazılar hədsizdir. Və çox zaman ciddi bir informasiya əldə etmək istəyən biri internet qarşısında saatlarla zaman itirir və axtardığını tapa bilmir. Bu zaman o, lazımsız yazıları da oxumaq məcburiyyətində qalır ki, bunun da heç bir faydası yoxdur. Ancaq kitab həmişə bizə doğru qapıları açmağın sirlərini öyrədir.

Digər mənfi hal isə artıq azyaşlı uşaqların da bunun qurbanlarına çevrilmələridir. Böyüklərin internet asılılığından xilas olmaqda çətinlik çəkdiyi bir dönəmdə azyaşlıların bu "xəstəliy"ə tutulmaları çox təhlükəlidir. Xüsusilə də saatlarla internet qarşısında oyunlar oynayan uşaqlar əsəb gərginliyi keçirir, yaxınlarına qarşı laqeyd münasibət sərgiləyir, eyni zamanda öz sağlamlıqlarını da təhlükə altında qoyurlar.

Dünya KİV-nə nəzər salsaq, bunun fəsadlarının daha aydın şəkildə şahidi ola bilərik. **Tailandlı bir gəncin səhərə qədər oyun oynadıqdan sonra kompüterin qarşısında ölü tapılması, Tayvanda 18 yaşlı bir gəncin fasiləsiz 40 saat oyun oynaması nəticəsində haldan düşərək həyatını itirməsi kimi nümunələr gələcəkdə hər birimizin qarşılaşa biləcəyimiz faciələrə bir xəbərdarlıq deyilmi?!**

Şəxsən mən ətrafımda bir çoxlarının internetdən həddindən artıq istifadə etmələri nəticəsində psixi cəhətdən narahatlıq keçirmələrinin şahidiyəm. Onlar ailələrindən, yaxınlarından, real həyatdan demək olar ki, ayrılıblar. Sadə, həll ediləbiləcək məsələlərə belə aqressiv münasibət sərgiləyirlər. Ətrafındakılardan günbəgün uzaqlaşaraq, bir növ robot həyatı sürürlər.

Yəqin ki, bir çoxlarınız tez-tez internetin zərərləri barədə yazılarla qarşılaşmısınız. Amma mən "kitab oxumağın zərərləri" haqqında fikirlərə heç rast gəlməmişəm. Deməli ki, internet heç vaxt kitabı əvəz edə bilməz. Əksinə internet bir çox insanları cahilləşdirən vasitədir. Gəlin özümüzü internetin zərərlərindən qoruyaq. Ondan istifadə edək, ancaq qədərində. Ümumiyyətlə, istifadə etdiyimiz hər bir vasitədən qədərindən artıq yararlanmağa çalışmayaq. *Dahi Nizami Gəncəvi doğru deyib ki, "Bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir o da..."*

**Yeni nəşrlər**

## "Orta mənada konstruktiv xarakteristika"

***Fizika-riyaziyyat elmləri doktoru, professor Camal Məmmədxanov və riyaziyyat üzrə fəlsəfə doktoru İradə Dadaşovanın birgə müəllifliyi ilə "Orta mənada konstruktiv xarakteristika" adlı kitab işıq üzü görüb.***



Almaniyanın LAP LAMBERT nəşriyyatında çıxarılan kitabda kompleks müstəvidə geniş əyrilər sinfində orta mənada Hölder sinfinin analoqu üçün funksiyanın konstruktiv nəzəriyyəsi öyrənilir. Həmçinin kompleks müstəvidə ümumiləşmiş əyrilər sinfində tərs aproksimasiya teoremlərinin isbatında istifadə edilən Markov-Bernşteyn və Nikolski tipli bərabərsizliklərin analoqları alınmış, düz aproksimasiya teoremləri ni qapayan uyğun tərs aproksimasiya teoremləri isbat edilmişdir.

Kitab kompleks dəyişən funksiyalar nəzəriyyəsi mütəxəssisləri üçün nəzərdə tutulub və alınmış nəticələr kompleks dəyişən funksiyaların ümumi nəzəriyyəsinin müxtəlif məsələlərində tətbiq oluna bilər.

## "Jurnalistika"



***Bakı Dövlət Universitetinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının dosenti Akif Rüstəmovun*** "Jurnalistika" adlı iki cildlik kitabı işıq üzü görüb. ***Birinci cilddə*** jurnalistika tarixinə nəzər salınır, xarici ölkələrdə medianın yaranmasından söhbət açılır. Burada həmçinin milli mətbuatımızın işıq üzü görməsindən bəhs olunur, bütövlükdə Azərbaycan mətbuatının keçdiyi yol araşdırılır. ***İkinci cilddə*** isə jurnalistikanın funksiya və prinsipləri, nəzəri konsepsiyaları, hüquqi tənzimlənməsi, "dördüncü hakimiyyət" olması, peşə etikası, mətbuat janrları - bir sözlə, jurnalistikanın cəmiyyətdəki çox vacib yeri və mövqeyi barədə məlumat verilir.

Yenilənmiş dərs vəsaitində Azərbaycanda və xarici ölkələrdə jurnalistikanın yaranması və təşəkkülünə nəzər salınıb, ***"Əlavələr" bölmələrində*** beynəlxalq təşkilatların mediaya dair qəbul etdikləri sənədlər, tanınmış şəxsiyyətlərin mətbuat və söz azadlığı barədə məqalə və çıxışlarından nümunələr verilib.

***Kitab jurnalistika fakültəsinin tələbələri və KİV-də çalışanlar üçün nəzərdə tutulub.***

***Kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Nəsir Əhmədli, rəyçilər: filologiya elmləri doktoru, professor A.Bayramoğlu, filologiya elmləri namizədi, dosent M.Mahmudov, baş müəllim Ə.Hacıyevdir.***

**Layihə**

# Deputat-tələbə əməkdaşlığı

***Modern.az saytının Milli Məclisin deputatları ilə ali məktəb tələbələri arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edən "Deputat-tələbə əməkdaşlığı" layihəsi davam edir.***

Deputat istədiyi mövzu ilə bağlı tələbələrin fikirlərini öyrənir. Həmin mövzu ilə bağlı müxtəlif janrlarda məqalə yazan tələbələrin yazıları Modern.az saytında yerləşdirilir.Sonra Modern.az saytı həmin yazıları deputata təqdim edir. Deputat isə öz növbəsində həmin yazılar içərisindən ən yaxşı hesab etdiyini seçir. Ardınca ən yaxşı yazı müəllifləri ilə deputatın görüşü keçirilir. Görüşdə deputat qalib tələbəyə mükafat verir. Eyni zamanda 3 yaxşı yazıya həvəsləndirici mükafat verilir. Deputatla görüşdə isə tələbələrə deputatla diskussiya aparmaq, suallar vermək üçün şərait yaradılır. Artıq 52 saylı Quba seçki dairəsinin deputatı Vahid Əhmədov, 92 saylı Zərdab-Ucar seçki dairəsindən deputat Jalə Əliyeva, 71 saylı Masallı kənd seçki dairəsinin deputatı Elmira Axundova, 105 saylı Tovuz seçki dairəsindən deputat Qənirə Paşayeva, 9 saylı Balakən seçki dairəsinin deputatı Rəbiyyət Aslanova və 122 saylı Xankəndi seçki dairəsinin deputatı Flora Qasımova iştirak ediblər və qalib tələbələri mükafatlandırıblar.

Layihə bu dəfə 83 saylı Ağcabədi-Füzuli seçki dairəsinin deputatı Aqil Abbasın verdiyi mövzu ilə davam edir. Millət vəkili təqdim etdiyi ***"Gənclər və Qarabağ"*** mövzusu ilə tələbələrin fikirlərini bilmək istəyir.

***Qeyd edək ki, hər bir mövzuyla bağlı 15 gün vaxt verilir. Müsabiqədə iştirak etmək istəyən tələbələr mövzu elan olunduqdan sonra 15 gün müddətində yazılarınıanar_rustamzade@mail.ru elektron poçtuna göndərə bilərlər.***


## Toplum önündə danışmağa utanırsınız?

Fikirlərinizi sərbəst ifadə etməyə çətinlik çəkirsiniz?

Hər hansı tədbirdə, toplantıda çıxış etmək sizin üçün qorxulu və vahimələdir? Çoxlu sayda insanların önündə diliniz sözünüzə qulaq asmır?

Danışdığınız zaman nə deyəcəyinizi unudursunuz?

Çıxışlarınızı daha sərbəst və gözəl etmək istəyirsiniz?

Öz çıxışınızla dinləyicilərin fikirlərini cəlb etmək, bələğətli və xarizmatik natiq olmaq istəyirsiniz?

Elə isə... Bakıda ilk dəfə!

Siz "Xarizmatik Natiq" treninqində iştirak edə bilərsiniz.

Treninq "Moskva Bəlağət və Natiqlik Bacarığı Universitetinin" metodikası ilə keçirilir

***Tel: (012) 408 42 14; (055) 444 14 00***

***Ünvan: Murtuza Muxtarov Küçəsi 53, (Azdramanın arxası)***

***https://www.facebook.com/KarnegiKlub***

***karnegi.az***



**Baş redaktor:**
Anzulə ƏMİROVA

**Redaksiya heyəti:**
Solmaz Babaşova,
Aynur Qurbanqızı,
Tamilla Müslümova,
Salam Muxtarov,
Kəramət Böyükçöl

**Redaksiyanın ünvanı:**
Bakı, akad. Zahid Xəlilov küç. 23,
BDU-nun əsas binası, III mərtəbə
**Tel.:** 539-03-64, 539-04-78
e-mail:anzule@mail.ru

**Sifariş: 162**
**Tiraj: 2000**

VÖEN: 990000213
Lisenziya №-022708
Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Əlyazmalar geri qaytarılmır